# ÇƏTİN İŞİN YOLÇUSU



*Baba BABAYEV,*
*filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun baş elmi işçisi*

Çağdaş milli filologiyamızın aparıcı elmi istiqamətlərindən biri olan haqverdiyevşünaslığın araşdırılmasından söz açılanda filologiya üzrə fəlsəfə doktoru Güldəniz Qocayevanın adı qürurla dilə gətirilir. Böyük ədəbiyyatşünaslar Kamran Məmmədov, Təhsin Mütəllimov, Məmməd Məmmədov və b. ilə birlikdə onun ismi də sözügedən siyahıya daxil olur. Bu gün haqverdiyevşünaslıq əldə etdiyimiz milli müstəqillik sayəsində azad nəfəs alan bir elm sahəsinə çevrilibdir. Təbii ki, bu yazıçı-dramaturqun, publisistin Azərbaycandakı təşəkkül və inkişaf tarixinin mənzərəsinə nəzər yetirsək, nəinki bütün elmi istiqamətin, həm də haqverdiyevşünaslığın nə qədər çətinlik və sosrealizmin ideoloji təqib-təsirlərindən keçib gəldiyi ziqzaqlı yol aydın görünər. Hətta bu qorxu xofu canına elə yerimişdi ki, naəlac qalıb tərcümeyi-halını da olduğu kimi göstərə bilməmişdir.

Ömrünün 6 onluğunu geridə qoyan Güldəniz Qocayeva 1959-cu il mayın 6-da Azərbaycanın qədim əyalət şəhərlərindən biri olan Ağdaşda anadan olmuşdur. Atası Göyüş həkim yaxın Göyçay, Ucar, Zərdab rayonlarında da tanınır, xəstə insanların pasibanı olur, şəfa tapmalarına yardım edirdi. Güldəniz sonbeşik olduğu üçün ailə tərəfindən daha çox sevilirmiş. Atası 1968-ci ildə Bakı şəhərinə köçmüş, İçərişəhərdəki evlərində məskunlaşmış, Güldəniz isə təhsilini 132 saylı məktəbdə davam etdirmişdir.

Bəzən iş yoldaşımız Güldəniz xanım nostalji hissə qapılaraq o illəri bir az kədərli, bir az da sevincli, gözləri dolmuş halda belə xatırlayır: "Ağdaşdakı gözəl, xoş güllər simalı evimiz, geniş, cənnətə bənzər, ətirli güllər içində itibatmış həyətimiz, yayda dəstə-dəstə bizə qonaq gələn qardaşımın dostları; çox sevdiyim Əli Kərim, ailəmizin doğması saydığımız Əkrəm Əylisli, Fikrət Sadıq, Vaqif Nəsib, atamın Moskvadan olan və ərklə qapımızı açıb, həftələrlə bizdə qalan dostları, evimizə dəstə-dəstə gəlib-gedən qohumlar, hətta tanımadığım adamlar və daha kimlər, nələr... valideyinlərimlə, bacı-qardaşlarımla birgə yaşadığım xoşbəxt uşaqlıq illərim ömrümün elə zəngin, elə maraqlı dövrüdür ki, sonrakı həyatımda nə qədər çətinlik, necə pərişanlıq, qəmqüssə yaşasam da, olanları unutmaq üçün bir neçə xoş xatirə ovqatımı dəyişməyə bəs edirdi. Orta məktəbi bitirəndə Güldənizi həkim görmək istəyən atası həyatda yox idi. İki il Tibb Universitetinə üz tutan qızcığazın üzünə qapılar bağlı qaldı. Genetik kodlar onu APİ-nin (ADPU) filologiya fakültəsinə yönəltdi. 1983-cü ildə ali məktəbi qurtarıb "Qız qalası", "Şirvanşahlar sarayı" memarlıq kompleksində işləyir. Əsl İçərişəhər təəssübü ilə turistlərə tarixi abidələrimiz haqqında bilgilər verir, dünyanın tanınmış, maraqlı adamları ilə münasibətlər qurur, dostlar tapır.

1986-cı ildən bu günə qədər o, AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində işləyir. Akademik Kamal Talıbzadənin rəhbərliyi ilə "Ə.Haqverdiyevin bədii nəsri" mövzusunda namizədlik dissertasiyasını 1988-ci ildə hazır edir. 1992-ci ildə şöbədə müzakirə olunan işi 1994-cü ildə müdafiə edir. 2002-ci ildə "Nagah xəyalıma cəhənnəm düşdü" monoqrafiyasını nəşr etdirir. XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid ədəbiyyatşünaslığa və ədəbi-nəzəri tənqidə aid dövri mətbuatda mütəmadi olaraq məqalələrlə çıxış edir.

Güldəniz həkim ailəsində doğulsa da, qardaşı, Xalq şairi Fikrət Qoca, tərcüməçi qardaşı Hamlet Qoca, filoloq bacısı Aybəniz və onun həyat yoldaşı, yazıçı Məmməd Oruc kimi ömrünü "Tanrı cəzasını çəkənlər" sırasına qatdı. O, məhz belə bir ziyalı, aydınlar mühitində yetişib tərbiyə alaraq gələcək həyat yolunu, (atasının həkimlik istəyi baş tutmasa da) Tanrının qisməti, alın yazısı kimi müəyyənləşdirildi.

Güldənizin səmimiyyətindən, təvazökarlığından onunla bir qrupda oxuyan şöbə əməkdaşımız, dosent Şahbaz Şamıoğlu vurğuladı ki, tələbəlik illərində müəllimlərimizin heç biri bilmirdi ki, bu qız istedadlı Azərbaycan şairi, şeirləri o illər dillər əzbəri olan (elə bu gün də), yüzlərlə nəğməli poeziya nümunələrinə musiqi bəstələnən, ən məşhur Azərbaycan müğənniləri tərəfindən ifa olunan Fikrət

Qocanın sonbeşik bacısıdır. Şəhər mühitində böyüməsi, ziyalı bir ailədə tərbiyə alması xarakterinin mənəviyyatca zənginləşməsinə, dünyagörüşünün formalaşmasına ciddi təsir göstərmiş, tələbə yoldaşları içərisində onu fərqləndirmişdir. Bir dəfə də olsun kəndçi tələbə oğlan-qızlara laqeydliyini hiss etdirməmişdir. Dərslərə ciddi hazırlığı, geniş mütaliəsi, dünya ədəbiyyatını daha çox oxuması, rus dilini mükəmməl bilməsi istər-istəməz auditoriyada onu dostlarından fərqləndirirmiş.

Bu günlərdə Güldəniz mənə bir kitab təqdim etdi. Təbrik edirəm, axırıncı olmasın deyəndə, o qızararaq, yanaqları allanmış kimi oldu, "Müəllim, Dənizindir", – dedi. Sən demə, kitab 8-ci sinif şagirdi olan yeganə gül balası Dənizin imiş. İlk kitabı 2014-cü ildə işıq üzü görən "Bahar, Dəniz, bir də bütün dünyamız" olan qızcığaz ikinci, "Kollaj düşüncələr" kitabı ilə oxucuların görüşünə gəlibmiş. Ani beynimdən keçdi ki, artıq bu işlər varislikdən, gendən gələn özəllikdən xəbər vermirmi? Ana – Güldəniz, bala – Dənizin kitabına istedadla, yana-yana ön söz yazmışdır. Kitabın maraqlı, fantaziyalarla çulğalanmış illüstrasiyası da Dənizin özünə məxsusdur. Bir də bu lakonik ədəbi parçalar mənə Dənizin uğurlu ola biləcək, ciddi gələcəyindən xəbər verir. Azərbaycan, rus, ingilis dilində qələmə aldığı yazılarında Dəniz insan, mühit, dünya, bəşəri münasibətlər, həyat və insan psixologiyası haqqında fikir – düşüncələrini esse və hekayələrində, povest və şeirlərində ifadə etmiş, nəticə olaraq insan ləyaqətini ən yüksək mənəvi dəyər kimi təsvir edərək səciyyələndirmişdir.

İnstitutun direktoru, akademik İsa Həbibbəylinin təşəbbüsü və təşkilatçılığı ilə "Yazıçıların həyat və yaradıcılığının tədqiqinə yenidən qayıdış" layihəsi əsasında hazırlanan "Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yara-



dıcılığı" ilk monoqrafik tədqiqatda "Xortdanın cəhənnəm məktubları" nəsr əsəri Güldəniz Qocayevaya həvalə olundu. Xanım alim həmkarımız bu işi, ləyaqətlə, professional ədəbiyyatşünas səriştəsi və yeni yanaşma metodologiyası ilə, polemikalara yol aça-aça hazırladı.

Güldəniz xanımı 1986-cı ildən tanıyıram. 2007-ci ildə tamamlayıb müzakirəyə təqdim etdiyim doktorluq dissertasiyasında onun "Nagah xəyalıma cəhhəm düşdü" monoqrafiyasını oxumuş, işdə sitatlar da vermişdim. Müxtəlif dövrlərin Azərbaycan ədəbiyyatı haqqında orijinal nəzəri mühakimələr yürüdən, sanballı məqalələr yazan Güldəniz Qocayeva hər yazısında, resenziyalarında ədəbiyyatşünas xanım ədasını qoruyub saxlayır. 1997-ci ildən "Azərbaycan romantik ədəbiyyatında turançılıq" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir. Doğrudur, obyektiv, subyektiv səbəblərdən mövzunun işlənməsi ləngidi. Bir dəfə söhbət əsnasında o bildirdi ki, araşdırma zamanı mövzunun daha geniş aspektdə işlənməsini məqsədə müvafiq hesab etdim. Azərbaycan romantik poeziyasını Avropa romantizminin bir hissəsi kimi işləməyin və romantik poeziyamızın müxtəlif problemlərinin bu aspektdə araşdırmağın daha vacib olduğunu görür və indi apardığı araşdırmalar, yazdığı məqalələr məhz bu cəhətləri ehtiva edir.

Güldəniz xanım az yazır, amma saz yazır. Bir alim-yazıçı kimi onun haqqında təsəvvürlərim, yaradıcılıq sirlərinə bələdçiliyim monoqrafiyasından, məqalələrindən və şöbədə namizədlik və doktorluq dissertasi-yalarının müzakirələrindəki çıxışları olubdur. Güzəştə gedən də deyil, sözünü deyir, polemikalara qoşulur, tutarlı arqumentlərlə müsahibini mat edir. Dünya ədəbiyyatını mütəmadi mütaliəsi gətirdiyi tutarlı faktlardan, nəzəri fikirlərə müqayisəli münasibətlərindən, ümumiləşdirmə bacarığından aydın olur. Yazılarında olduğu kimi, elmi söhbətlərində də ədəbi fikrin həm tarixi, həm də metodoloji məsələlərini bütün vüsəti ilə əhatə edir, milli və dünya ədəbi fikrinin müasir oxucuya az məlum olan faktlarını dilə gətirir, gözlənilməz mövqedən təhlil edir.

Güldəniz xanım ötən illər ərzində ayrı-ayrı universitetlərdə pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Neçə il öncə ondan soruşdum ki, müəllimliyini niyə davam etdirmədin? Otağımızdakı digər elmi işçimiz də söhbətə qoşuldu. Nisbətən gənc olan bu alim qız Güldənizin dediklərini təsdiq etdi ki, tələblərdən utandıq, libasımız çox fərqliydi. Ən yaxşısı bu ab-havada xəcalət çəkməkdənsə uzaqlaşıb getmək idi. Onda gözlərimin dolduğunu görməsinlər deyə, üzümü yana çevirib otaqdan çıxmışdım.

Ustadlar deyiblər ki, əbədi qalan kitablardır. Baxmayaraq, bir klassik filosof da yazarları "Tanrı cəzasını çəkənlər" adlandırıbdır. Hər halda istedadlı tənqidçi-ədəbiyyatşünas (Tanrı işini avand eləsin), professor Nizaməddin Şəmsizadə demişkən, "kitab insanın özünə öz sağlığında öz əli ilə ucaltdığı ən möhtəşəm abidədir".

Təbii ki, kiçik bir məqalədə Güldəniz Qocayevanın elmi yaradıcılığını geniş təqdim etmək ixtiyarında deyiləm. Bizə elə gəlir ki, Güldəniz Qocayeva üzərinə götürdüyü missiyanı həm ailədə, həm də elmdə cəsarətlə, dözüm və təmkinlə, intellektual və elmi səviyyə ilə davam etdirəcəkdir. O, öz yaradıcılığının yeni, bütövləşmiş, qəlibə sığan mərhələsini yaşayır. Qarşıda onu doktorluq dissertasiyasını müdafiə etməklə, yeni-yeni sanballı elmi araşdırmalar, bir də Dənizin xoşbəxtliyi (kitabına ön sözdə ana övladına arzulayırdı ki, həyat pis üzünü göstərib onu peşman eləməsin. Amin!!..) gözləyir.

***Ad gününün mübarək! Yeddinci onilliyə xoş gəldin!***

